# Dağlı kəndinin şəhid oğlu

**Düz 30 ilə yaxın idi ki, anamız Azərbaycan başına qara yaylıq bağlamışdı. 30 ilə yaxın idi ki, cavanlarımızın qaş-qabağı açılmır, qız-gəlinlərimizin üzü gülmür, analarımızın göz yaşları qurumurdu.**

Bütün bunlar az imiş kimi 2020-ci ilin sentyabr ayının 27-də saat 06.00



radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəyanı zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini iriçaplı silahlar,minaatanlar və müxtəlif çaplı artileriya qurğularından intensiv atəşə tutulub. Azərbaycanın ön xətt bölməsi düşmənin bu təxribatının qarşısını almaq məqsədilə cavab tədbirləri gördü.

### *27 sentyabr tarixində*

***müzəffər ordumuzun sıralarında, torpaqlarımızın yağı düşmən tapdağından azad edilməsi uğrunda gedən döyüşün ilk günündə Goranboy istiqamətində yerləşən bir neçə kəndin və Murovdağ silsiləsindəki Murov zirvəsinin düşməndən azad olunmasında düşmənə əyilmədən, vətən uğrunda qəhrəmancasına şəhidlik zirvəsinə yüksələnlənlərdən biri də Xudayev Yaşar Əli oğlu olmuşdur. Yaşar Xudayev 1999-cu il noyabr ayının 1-də Quba rayonunun Dağlı kəndində anadan olmuşdur. 2006- 2015-ci illərdə Dağlı kənd tam orta məktəbində oxumuş, IX sinfi bitirdikdən sonra təhsilini Bakı Qida Sənayesi kollecində davam etdirmişdir. Yaşar Xudayev 2019-cu ilin iyun ayında həmin kolleci müvəffəqiyyətlə bitirərək, İaşə məhsullarının texnologiyası ixtisasını almışdır. Amma o, diplom təqdim olunmasını gözləmədən iyul ayının 23-də hərbi xidmətə yola düşmüşdür.***

Goranboy rayonunun Ballıqaya ərazisində N saylı hərbi hissədə xidmət edən Y.Xudayev andiçmə mərasimindən sonra könüllü olaraq adını Xüsusi Təyinatlı Qüvvələrin sıralarına yazdırmışdır. Xidmət etdiyi ilk günlərdən komandirlərin hər bir tapşırığını layiqincə yerinə yetirmiş,özünü istiqanlı bir əskər kimi göstərmiş, yoldaşları arasında dərin hörmət qazanmışdı.

Odur ki, Y.Xudayev komandanlıq tərəfindən kiçik çavuş hərbi rütbəsi ilə təltif edilmiş və manqa komandiri vəzifəsinə təyin olunmuşdur.

Anası Sara xanımın dediklərindən : ”Mən şəhid Yaşarın anasıyam. Yaşar evin sonbeşiyi, iki bacının - Xəyalə və Nuranənin yeganə qardaşı idi. Mən onu körpə uşaq təki çox istəyirdim. Yaşar mənim qəlbimdə daha fərqli idi. O, daim mənim üçün körpə, heç vaxt böyüməyən, evin uşaq qalan övladı idi. Sən demə o böyüyüb düşmənin başını əzə bilən cəsarətli, məğrur bir qəhrəman olubmuş. Mənim balam vətənpərvər ruhda tərbiyə aldı və vətəni hər bir nemətdən uca tutdu. Mən ona körpəlikdən vətən sevgisi aşıladım”.

### *Yaşar çox istəyirdi ki,*

***işğal altında olan torpaqlarımız azad olsun. ”Müharibə yolu ilə də olsa, vətən işğaldan azad olunmalıdır”, - deyirdi. O, uşaqlıqdan kiçik qəbində böyük vətən sevgisi yaşayırdı. Onun amalı da, arzusu da vətənlə bağlı idi. Oxuduğu məktəblərdə də bu amalı, bu sevgisi müəllim kollektivi tərəfindən yüksək qiymətləndirilmiş, fəxri fərmanlar və diplomlarla təltif olunmuşdu.***

Bəli, Yaşar çox az yaşadı, çox az ömür sürdü, ancaq onun bu az ömründə göstərdiyi qəhrəmanlıqlar hər oğula, hər igidə qismət olmur.

Oğullarımızın qanı yerdə qalmadı. Biz qalib gəldik. Torpaqlarımız işğaldan azad olundu. Yaşarın ruhu bu gün şaddır. Rahat uyu, balaca fidanımız, qəhrəmanlar cərgəsində igid, qəhrəman balamız.

Yaşar on il təhsil aldığı Dağlı kənd məktəbinin nümunəvi şagirdlərindən biri olmuşdur”. Ya azadlıq, ya ölüm!”. Şüarını bayraq edib döyüşə girən döyüşçüyə şəhid olsa da ölüm yoxdur. Yaşar da ölməmişdir. O müəllim və şagirdlərimizin qəlbində, dostlarının yaddaşında əbədi yaşayacaqdır.

Sizin oğlunuzla fəxr etməyə mənəvi haqqınız var, Əli Ata və Sara Ana ! Siz adını fəxrlə çəkdiyiniz şəhid Bacılarınız - Xəyalə və Nuranə ! Başınızı dik tutun, qürurla gəzin! Düşmənin üstünə şahin kimi şığıyan igid Yaşar tək Dağlı kəndinin yox, Azərbaycan xalqının oğludur. Allah şəhid balalarımızın hamısına min rəhmət eləsin, qəbirləri nurla dolsun.

***Əzizinəm bu dağda,***
***Bülbül oxur budaqda.***
***Nəbi tək igidlərin,***
***İzi vardır bu dağda.***

28 sentyabr 2020-ci il tarixdə izdihamın müşayiəti ilə Yaşar Əli oğlu Xudayev Qubanın Şəhidlər Xiyabanında son mənzilə yola salındı. O, ölümündən sonra ”Vətən uğrunda” və ”Cəsur döyüşçü” medalları ilə təltif olundu.Təhsil aldığı Dağlı kənd tam orta məktəbində şəhidin əziz xatirəsinə həsr olunmuş guşə yaradılıb.

**Y.Xudayev subay idi. Onu da qeyd etmək istəyirəm ki, valideynlərin indi yalnız bir arzusu var : Şəhid oğullarının adını kənddə təhsil aldığı tam orta məktəbə vermək, onun adını əbədiləşdirmək.**

**Şixəmməd Seyidməmmədov,**
**Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü**